*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 19 avqust 2015-ci il | № 63 (1979) | Qiyməti 25 qəpik

# Qələbəyə aparan yol vətənpərvərlikdən başlanır

## General-polkovnik Zakir HƏSƏNOV:

### *Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənası olmalıdır*

***Ta qədimdən bəri müqəddəs sevgidən söhbət açılanda öncə Vətən sevgisi yada düşür. Hər kəs qoynunda doğulub boya-başa çatdığı, minbir naz-nemətindən bəhrələndiyi doğma yurduna bağlı olmalıdır. Əgər səndə anaya, yurdun torpağına, daşına, gülünə, çiçəyinə məhəbbət varsa, bu, Vətən sevgisinin əlamətləridir. Məhz buna görə də Ana, Vətən sözü dilimizin əzbəridir.***

Hərbi hissələrin birində gənc əsgərlərin təntənəli andiçmə mərasimində iştirak edirdim. Gənclər Vətənə sədaqət andını qəbul edib hərbi marşı yerinə yetirirdilər. Bu mənzərəni seyr edərkən yaxınlığımda bir ananın yanaqlarından göz yaşlarının gilələndiyini gördüm. İlahi, nə gözəl anı seyr edirdim, elə bil qadının öz yanaqlarından süzülən göz yaşından xəbəri yox idi. Tədbirdə imkan tapıb ondan bir əsgər anası kimi müsahibə alıram. Deyir ki, ilk dəfədir belə tədbirdə iştirak etdiyinə görə bir qədər həyəcanlıdır. "Mən bu gün qürur duyuram ki, Vətənim üçün oğul böyütmüşəm", - deyir ana. Bir anlığa nəzərimdə əsl qəhrəmanlığa imza atan neçə-neçə cəngavər döyüşçümüzü, onların analarını xatırlayıram. Deyirəm ki, əhsən belə analara. Çünki Vətən üçün canlarını belə əsirgəməyən igidlər böyüdüblər. Hər dəfə Biləsuvar rayonuna yolum düşəndə əfsanəvi döyüşçümüz, öz qəhrəmanlığı ilə Türk dünyasına səs salmış Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun anası ilə salamlaşmaq keçir könlümdən. Doğrudur, bir neçə dəfə ailələrində olmuşam, qəhrəmanın nurani atası, qədirbilən anası ilə görüşüb söhbət etmişəm. Bəlkə də 20 ildən artıq jurnalist kimi fəaliyyətimdə ən yaxşı yazılarımdan birini Mübarizin qəhrəmanlığına həsr etmişdim. Bunu deməyə tutarlı əsasım var. Bir dəfə Ağdam bölgəsindəki hərbi hissədə ezamiyyətdə olanda əsgərlərin istirahət guşəsində saralmış bir "Azərbaycan Ordusu" diqqətimi cəlb etdi. Komandirdən soruşanda ki, bu köhnə qəzet kimə lazımdır? Bildirmişdi ki, orada üçüncü səhifədə Mübariz İbrahimov haqqında bir yazı dərc edilib. Hamı o məqaləni dönə-dönə oxuyur. Yaxınlaşıb qəzeti vərəqləyəndə öz yazıma rast gəldim və qəlbimi qürur hissi bürüdü. Amma komandirə bildirmədim ki, həmin yazının müəllifi qarşınızda dayanıb.

Bəli, əslində qəhrəmanlığa gətirib çıxaran ən başlıca səbəb vətənpərvərlikdir. Ulu öndərimiz Heydər Əliyev çıxışlarının birində qeyd etmişdi ki, vətənpərvərlik insanın daxilindəki duyğulardır. Əgər bunlar yoxdursa, o insan mənəviyyatsızdır. Vətənpərvərlik hər kəsin qəlbində baş qaldıran, səni qəhrəmanlığa ruhlandıran ali hisslərdir. İnsan demək olar, həyata göz açdığı andan, körpəlikdən Vətənə sevgi ilə yetişməlidir. Bəzən deyirlər ki, həzin ana laylası belə mənəvi tərbiyənin əsasını yaradır. Gənc nəsli vətənpərvərlik ruhunda tərbiyə etmək üçün artıq cəmiyyətin özü də ailə qədər məsuliyyət daşıyır. Mənə elə gəlir ki, qələbəyə gedən yol məhz vətənpərvərlikdən başlanır. Yəni tükənməz Vətən sevgisini ürəyində yaşatmayan şəxs qəhrəman ola bilməz. Doğrudan da, milli dəyərlərimizə və qədim adət-ənənələrimizə bağlı olmayan gənc vətənpərvər ola bilməz. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa, yurda bağlı olmaq - bax budur vətənpərvərlik.



2014-cü ilin məlum avqust hadisələrindən sonra Bərdə rayonuna səfər edən dövlətimizin başçısı cəbhə xəttinə baş çəkərək düşmənin güclü təxribatının qarşısının alınmasında fərqlənən döyüşçülərlə görüşmüşdü, şəxsən onlara yüksək dövlət mükafatlarını təqdim etmişdi. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyev ordumuzun döyüş qüdrətinin artırılmasından danışaraq demişdi ki, ordunun əsas gücü onun vətənpərvər əsgər və zabitlərindədir.

Hazırda ordumuzda şəxsi heyətin vətənpərvərlik tərbiyəsi istiqamətində ardıcıl tədbirlər görülür, hərbi hissə və birləşmələrdə görkəmli sərkərdələrin yubiley mərasimləri təşkil edilir, cəmiyyətin tanınmış nümayəndələri, elm və sənət adamları, döyüş yolu keçmiş insanlarla əsgərlərin səngər görüşləri keçirilir. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən keçirilən belə tədbirlər şəxsi heyətin mənəvi-psixoloji hazırlığında, əsgərlərin döyüş əzminin güclənməsində mühüm əhəmiyyətə malikdir. Bu tədbirə qatılan əsgərlər daha həvəslə xidmət edir və yeni döyüş uğurlarına imza atmağa qadir olurlar.

Orduda vətənpərvərlik nümunələrindən söhbət açdığımız bir məqamda son vaxtlar Müdafiə Nazirliyi rəhbərliyinin hər bayramda ön xəttə gedərək əsgərləri ziyarət etməsini misal çəkmək istərdim. Əsgərlər görəndə ki, Müdafiə naziri, nazirin birinci müavini onlarla birgə süfrəyə əyləşir, o zaman şəxsi heyətdə yüksək vətənpərvərlik və inam duyğuları baş qaldırır. Komandirlər söhbətlərində deyirlər ki, ordu rəhbərliyinin əsgərlərlə bayram süfrəsində oturması çox dəyərli bir ənənəyə çevrilib. Artıq yüksək rütbəli zabitlər də şəxsi heyətlə birgə nahar edir, əsgərlərin qayğıları ilə yaxından maraqlanırlar. Düşmənlə yaxın məsafədə döyüş növbəsində dayanan əsgərləri ziyarət etmək, deyərdim ki, şəxsi heyətə əzm və iradə, qəhrəmanlıq hissləri aşılayan vətənpərvərlik nümunəsidir.

Bu gün ordu sıralarına toy-bayramla yola düşən gənclərimiz qısa bir vaxtdan sonra döyüş təcrübəsinə yiyələnirlər və sinələrini düşmənə sipər edərək Vətənimizi mətinliklə qoruyurlar. Fəxarətlə qeyd etmək lazımdır ki, on-on beş il əvvəlki dövrlə müqayisədə bugünkü gəncliyin hərbi xidmətə həvəsi daha da artıb və hər kəs ordu sıralarında xidmət edərək Vətənin müsəlləh döyüşçüsü kimi formalaşmağı özünə ən vacib vəzifə hesab edir. Xaricdə, nüfuzlu təhsil ocaqlarında təhsillərini başa vuran gənclərimiz də hər şeydən öncə Vətəni qorumağın sirlərinə dərindən yiyələnməyi hər şeydən üstün tutaraq vaxt itirmədən hərbi xidmətə gedirlər. Əslində ordu həyatı gənc nəslin nəinki döyüş vərdişlərinin möhkəmlənməsində, həmçinin, müstəqil həyata hazırlanmasında mühüm rol oynayır.

Gəlin, cəmiyyətimizdə mövqeyimizdən, vəzifəmizdən asılı olmayaraq hər birimiz gələcək nəslin yüksək vətənpərvərlik ruhunda və milli-mənəvi dəyərlərimiz əsasında layiqli tərbiyəsi üçün əlimizdən gələni əsirgəməyək!

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

# "İkili standartların dünya nizamı və müasir Azərbaycan"

***Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "İkili standartların dünya nizamı və müasir Azərbaycan" kitabı çapdan çıxıb.***

AZƏRTAC xəbər verir ki, aktual mövzularda elmi əsərlərlə vaxtaşırı geniş oxucu auditoriyasının diqqətini cəlb edən akademik Ramiz Mehdiyev Azərbaycanda gedən proseslərin geniş siyasi-sosioloji və elmi-fəlsəfi şərhini verir. Bu baxımdan görkəmli alimin yeni kitabı da olduqca təqdirəlayiqdir.

Akademik Ramiz Mehdiyev bu kitabında da geniş elmi axtarışlara söykənərək Azərbaycanda dövlətçilik ənənələrinin qorunmasının əsaslarını ətraflı şərh edir və buna maneələr yaradan amilləri açıq şəkildə göstərir. Filosof alim müasir müstəqil Azərbaycanın möhkəm təməlini qoyan, sabitliyi, güclü iqtisadiyyatı və demokratiyanı beynəlxalq birliyə ən yaxşı inteqrasiya yolu hesab edən ümummilli lider Heydər Əliyev kursunun bu sahədəki rolunu xüsusi vurğulayır, qeyd edir ki, Azərbaycan tarazlaşdırılmış xarici siyasətini uğurla davam və inkişaf etdirir. Aydın şəkildə diqqətə çatdırılır ki, Azərbaycan hakimiyyəti hadisələrin qiymətləndirilməsi və beynəlxalq problemlərin həllində ayrı-ayrı fövqəldövlətlərin maraqları baxımından deyil, beynəlxalq hüququn normaları və ölkənin milli maraqlarından çıxış edir.

Akademikin bu kitabı Azərbaycanda və dünyada baş verən siyasi proseslərin təhlili baxımından olduqca dolğun və tutarlı faktlarla zəngin bir siyasi yanaşma kimi qiymətləndirilməlidir.

Kitabda filosof alimin "İlham Əliyev yeni əsrin yeni lideridir", "Azərbaycan yalnız bərabərhüquqlu və qarşılıqlı hörmətə əsaslanan dialoq aparmaq əzmindədir və buna hazırdır, dövlətlərarası münasibətlərin başqa formaları onun üçün qəbuledilməzdir" sərlövhəli müsahibələri və "İkili standartların dünya nizamı və müasir Azərbaycan" adlı məqaləsi yer alıb.

İstər AZƏRTAC-a verdiyi hər iki müsahibəsində, istərsə də məqalədə akademik Ramiz Mehdiyev öz ənənəsinə sadiq qalaraq müasir dövlətçilik tariximizin inkişaf mərhələlərindən, üzləşdiyimiz çətinliklərdən, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində görülən işlərdən söz açıb, eyni zamanda, dünya güclərinin müstəqil siyasət yürüdən, demokratik dəyərlərə söykənən və gündən-günə inkişaf edən, Azərbaycana qarşı yürütdüyü siyasəti də obyektiv təhlil etməyi öz vəzifə borcu bilib.

Bu kitab səmərəli dövlət idarəçiliyinin aktual məsələlərinə, korrupsiyaya qarşı mübarizə sahəsində hüquqi və institusional islahatlara, qeyri-hökumət təşkilatlarının fəaliyyətinə və vəzifələrinə, yeni təşəkkül tapmış dünya nizamına və Qərb tərəfindən Azərbaycana tətbiq olunan ikili standartlar siyasətinə həsr edilib.

Akademik Ramiz Mehdiyevin "İkili standartların dünya nizamı və müasir Azərbaycan" kitabında dünyanın geosiyasi güclərinin vətəndaş cəmiyyəti institutları vasitəsilə müxtəlif dövlətlərin "mədəni" işğalı məqsədilə həyata keçirdiyi çoxşaxəli siyasəti mükəmməl təhlil edilib, postsənaye cəmiyyəti quruculuğunun indiki mərhələsində Azərbaycan dövlətinin siyasətinin əsas prinsipləri nəzərdən keçirilib, Prezident İlham Əliyevin innovasiyalı siyasətinin mahiyyəti açıqlanıb.

**AZƏRTAC-ın**
**materialları əsasında**

# Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin birgə taktiki təlimləri keçiriləcək

Azərbaycanla Türkiyə arasında illik hərbi əməkdaşlıq planına əsasən, iki ölkənin Hərbi Hava Qüvvələrinin iştirakı ilə "TurAz Qartalı - 2015" taktiki təlimləri keçiriləcək.

Avqustun 22-dən başlayacaq təlimlərdə Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus 30-dan artıq aviasiya vasitəsi, o cümlədən MiQ-29, F-16 qırıcı, Su-25 hücum, F-4E bombardmançı, C-130 Herkules hərbi-nəqliyyat təyyarələri, Mi-35 döyüş, Mi-17 və Sikorski UH-60 döyüş-nəqliyyat, Cougar AS532 axtarış-xilasetmə helikopterləri iştirak edəcəklər.

Təlimlərdə iki ölkənin Hərbi Hava Qüvvələrinin müştərək fəaliyyətlərinin planlaşdırılması, əməliyyatların keçirilməsi üzrə qarşılıqlı fəaliyyət və döyüş uzlaşması imkanlarının öyrənilməsi, axtarış-xilasetmə tədbirlərinin icrası, o cümlədən havadan zərbələr endirməklə yer hədəflərinin məhv edilməsi və digər tapşırıqlar yerinə yetiriləcək.

Təlimlər sentyabrın 18-dək davam edəcək.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

## *Əsgərin tribunası*

# Döyüşlərə həmişə hazıram

***Orta təhsilimi Yasamal rayonundakı Məhəmməd Füzuli adına 158 nömrəli məktəbdə almışam. Qarabağ müharibəsi başlananda bizim məktəbin məzunları da silaha sarılaraq yurdumuzun müdafiəsinə getmişdilər.***

Təəssüflər olsun ki, Qarabağ müharibəsində itkilərimiz də oldu. Məktəbimizin bir neçə məzunu torpaqlarımız uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəldi. Məktəbin dəhlizində şəhidlərə hörmət əlaməti olaraq guşə düzəldilib. Guşəni onların şəkilləri bəzəyir. Təhsil ocağında şəhidlərin anma mərasimləri keçirilir.

Məktəbin direktoru Zemfira Səmədova həmişə hərbi vətənpərvərlik tərbiyəsinə böyük önəm verirdi. Müntəzəm olaraq təhsil ocağında vətənpərvərlik ruhunda keçirilən tədbirlər hər kəsin ürəyindən xəbər verirdi. Respublika məktəbliləri arasında keçirilən "Şahin", "Cəsurlar" hərbi idman və turizm oyunlarında məktəbimizin komandası da fəal iştirak edirdi. Bir qayda olaraq, həmişə rayon birinciliyində yaxşı nəticə göstərirdik. Çağırışaqədərki hazırlıq fənnini tədris edən Azər müəllim şagirdlərə hərbi bilikləri dərindən öyrətməyə çalışırdı. Biz şagirdlər də dərslərdə fəal iştirak edərək hərbi bilikləri həvəslə öyrənirdik.

Ordu sıralarında xidmətə başlayanda isə orta məktəbdə öyrəndiyim biliklər əlimdən tutdu. Mən topçu oldum. Qısa müddətdən sonra artilleriya qurğusunun sirlərinə yiyələnməyə başladıq. Təcrübəli zabitlər bizə həm nəzəri, həm də əməli məşğələ keçərək hərbi bilikləri və döyüş vərdişlərini öyrədirdilər. Səmərəli keçən məşğələlərdə artilleriya qurğusunun sirlərinə yiyələndik. Günlər keçdikcə təcrübə və səriştəmiz daha da artdı. Keçirilən irimiqyaslı təlimlərdə də yaxşı nəticə göstərdim. Bacarıq və peşəkarlığımı nəzərə alan komandanlıq böyük etimad göstərərək məni top komandiri təyin etdi. İndi nümunəvi xidmətimlə mənə göstərilən etimadı doğrultmağa çalışıram. Xidmətdə qazandığım uğurlara görə baş leytenant Asim Ağakərimova borcluyam.

Xidmətimin başa çatmasına üç ay qalır. Bundan sonra da hərbi bilikləri dərindən öyrənəcəm, döyüş bacarığımı daha da təkmilləşdirəcəm. Torpaqlarımızın azadlığı uğrunda Ali Baş Komandanın döyüş əmrinə həmişə hazıram.

**Əsgər**
**Orxan BƏŞİROV,**
**"N" hərbi hissəsi**

# "Gənc Heydərçilər" hərbi vətənpərvərlik təmayüllü yay istirahət düşərgəsinə yola salınıb



***Avqustun 17-də Müdafiə Nazirliyi və Səbail rayon İcra Hakimiyyəti tərəfindən təşkil olunan "Gənc Heydərçilər"in hərbi vətənpərvərlik təmayüllü yay istirahət düşərgəsinə yolasalma mərasimi keçirilib.***

Həyata keçirilən belə tədbirlərdə məqsəd gənclərin sağlam böyüməsinə, idmana marağının artırılmasına və hərbi vətənpərvərlik tərbiyəsinin möhkəmləndirilməsinə nail olmaqdır.

Yolasalma mərasimində Müdafiə Nazirliyinin yüksək rütbəli zabitləri, Səbail rayon ictimaiyyət nümayəndələri, yeniyetmələr və valideyinləri iştirak ediblər.

Öncə Dövlət himninin ifası ilə açıq elan edilən tədbirdə çıxış edən Səbail rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov Prezident İlham Əliyevin yeniyetmə və gənclərin sağlam böyüməsi, gənc nəslin Vətənə məhəbbət, Azərbaycan dövlətçiliyinə sədaqət ruhunda tərbiyə olunması istiqamətində gördüyü işlərdən, yeniyetmələrə olan diqqət və qayğıdan danışıb. A.Əsgərov həmçinin qeyd edib ki, düşərgənin hərbi vətənpərvərlik təmayüllü olması nəzərə alınaraq, uşaqlar üçün xüsusi geyim və forma, lazımi idman ləvazimatları alınıb. Müdafiə Nazirliyinin "N" hərbi hissəsində düşərgənin təşkil olunması üçün geniş şərait yaradılıb. Düşərgədə uşaqların təlim-tərbiyə işləri ilə idman və ibtidai hərbi hazırlıq müəllimləri, onlarla yanaşı, hərbi hissənin zabitləri məşğul olacaqlar. İstirahət günlərində şagirdlərin Qusar rayonunun görməli yerlərinə gəzintiləri təşkil olunacaq.

Mərasimdə Müdafiə Nazirliyinin idarə rəisi, general-mayor Rasim Əliyev çıxış edərək Ali Baş Komandan İlham Əliyevin və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Silahlı Qüvvələrə göstərdiyi diqqət və qayğını vurğulayıb, mənalı və yaddaqalan istirahət üçün görülən işlərdən danışıb və uşaqlara xoş istirahət arzulayıb. General, həmçinin qeyd edib ki, düşərgədə yeniyetmələr hərbi hissə ilə yaxından təmasda olmaq, əsgərlərin gündəlik həyatı və məişət şəraitilə yaxından tanış olmaq imkanı qazanacaqlar. Bu da yeniyetmələrin gələcək hərbi



xidmətə daha yaxşı hazırlanmasına, onlarda hərbçi peşəsinə olan marağın artmasına səbəb olacaq.

"Gənc Heydərçilər" yola düşməzdən öncə "Fəxri xiyabanda" ulu öndər Heydər Əliyevin məzarını ziyarət ediblər.

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**




# "Qalib Azərbaycan əsgərini tərənnüm edə-edə düz Şuşaya, Laçına və oğlumun qanı çilənmiş Ağdərəyə qədər gedəcəyəm!"



***Aşıq Hüseyn Əzizoğlu Ağstafa rayonunun Yuxarı Göycəli kəndində yaşayır. Ağstafa şəhərindəki "Yazıçılar evi"nin nəzdində olan saz məktəbinin müəllimidir. El içində böyük hörmət sahibi olan, yaşı 60-ı çoxdan haqlamış bu kişini hamı vətənpərvər, torpaqsevər bir el sənətkarı kimi tanıyır.***

Aşıq Hüseynin oğlu Şahlar Hüseynov 1994-cü ildə Ağdərə uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. O gündən şəhid atası nəinki sədəf sazı ilə vidalaşıb, hətta sazını cəng havacatlarına kökləyərək cavanları Vətən uğrunda müqəddəs savaşlara səsləyib.

***Hoydu igidlərim, düşmən üstünə,***
***Şəhidlər qisasa çağırır sizi...***

Son günlər Aşıq Hüseyn Əzizoğlunu tez-tez cəbhə bölgələrində əsgərlərin arasında görmək olar. Ustad aşıq ölməz şairimiz Səməd Vurğunun "Çiçək vaxtı deyil indi, barıt vardır havalarda" və "Qoy hər sözün ciyərilə nəfəs alsın bir qəhrəman" misralarını bayraq edərək əsgərlərimizdə xoş ovqat, qələbə ruhu aşılamaqla oğul itkisini unutmağa çalışır.

"Mən şəhid atasıyam. Bununla fəxr edirəm. Oğlum Ağdərə uğrunda qanlı döyüşlərin birində qəhrəmanlıqla həlak olub. Düşmən texnika və canlı qüvvə sarıdan xeyli itki verib. Qisasını özü sağlığında alıb. Bunu döyüşçü dostları yaxşı xatırlayırlar. Təki Vətən sağ olsun! Oğul düşmən çəpəri deyilmi?! And içmişəm, mən də Vətən əsgərlərinə qoşularaq şəhid ruhları başım üstə qalib Azərbaycan əsgərini tərənnüm edə-edə düz Şuşaya, Laçına və oğlumun qanı çilənmiş Ağdərəyə qədər gedəcəyəm. Bax, o vaxt şəhid Şahlarımın da ruhu şad olacaqdır", - deyir şəhid atası Aşıq Hüseyn.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**



# Müdafiə nazirinin əmrinə əsasən vətəndaşların qəbul edilməsi işinin təşkilində dəyişiklik olunub

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmrinə əsasən, nazirliyin fəaliyyəti ilə bağlı daxil olan ərizə və şikayətlərə baxmaq, müəyyən olunmuş qaydada tədbirlər görmək, habelə vətəndaşların qəbul edilməsi işinin səmərəli təşkili məqsədilə qəbul qaydalarında bəzi dəyişikliklər edilib.

Hərbi qulluqçuların və digər vətəndaşların müraciətlərinə diqqət və qayğının artırılması məqsədilə Müdafiə Nazirliyində rəhbər vəzifəli şəxslərin qəbul günləri müəyyən olunub. Əmrə əsasən, Silahlı Qüvvələr və Qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə, müstəqil şöbə, xidmət rəisləri, birlik, birləşmə və əlahiddə hərbi hissə (gəmi) komandirləri və digər müəssisə rəisləri də müəyyən edilmiş vaxtlarda vətəndaşları qəbul etməli və müraciətlərə baxmalıdırlar.

Nazirliyin rəhbər vəzifəli şəxsləri tərəfindən vətəndaşların qəbulu müəyyən olunmuş günlərdə saat 16.00-dan 18.00-dək Müdafiə Nazirliyinin Həzi Aslanov adına Mərkəzi Zabitlər Evində və digər yerlərdə həyata keçiriləcək.

## Azərbaycan Respublikası Müdafiə Nazirliyində rəhbər vəzifəli şəxslər tərəfindən vətəndaşların qəbul günləri

**Azərbaycan Respublikasının Müdafiə naziri** - hər ayın 2-ci həftəsinin çərşənbə axşamı günü;

**Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi** - hər ayın 2-ci həftəsinin cümə günü;

**Müdafiə nazirinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi** - hər ayın 1-ci həftəsinin çərşənbə axşamı günü;

**Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı** - hər ayın 1-ci həftəsinin cümə günü;

**Müdafiə nazirinin maddi-texniki təminat üzrə müavini - Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi** - hər ayın 3-cü həftəsinin şənbə günü;

**Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müavini - Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi** - hər ayın 3-cü həftəsinin çərşənbə günü;

**Tibb Baş İdarəsinin rəisi** - hər ayın 1-ci həftəsinin cümə axşamı günü;

**Təşkilat Səfərbərlik İdarəsinin rəisi** - hər ayın 3-cü həftəsinin cümə axşamı günü;

**Şəxsi Heyət Baş İdarəsi - Kadrlar İdarəsinin rəisi** - hər ayın 4-cü həftəsinin cümə günü;

**Şəxsi Heyət Baş İdarəsi - Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi** - hər ayın 3-cü həftəsinin çərşənbə axşamı günü;

**Hüquq İdarəsinin rəisi** - hər ayın 4-cü həftəsinin çərşənbə günü;

**Maliyyə və Büdcə İdarəsinin rəisi** - hər ayın 3-cü həftəsinin cümə günü;

**İşlər İdarəsinin rəisi** - hər ayın 4-cü həftəsinin şənbə günü;

***Bakı Qarnizonunun rəisi*** - hər ayın 2-ci həftəsinin cümə günü.

**Vətəndaşların qəbul vaxtı:** saat 16.00-dan - 18.00-dək.

**Vətəndaşların qəbul yeri:** Müdafiə Nazirliyinin H.Aslanov adına Mərkəzi Zabitlər Evi.

**Ünvan:** Bakı şəhəri, S.Vurğun küçəsi, 12 ("Sahil" metro stansiyasının yaxınlığında).

**Qəbula yazılma vaxtı:** hər gün saat 14.00-dan 18.00-dək (istirahət, bayram günləri və ümumxalq hüzn günü istisna olmaqla).

**Əlaqə telefonu:** (012) 493-50-26

# Vətənin keşiyində ayıq-sayıq dayanacaqlar

Səngərlərə yola düşməzdən əvvəl döyüş növbəsindən yenicə tabora qayıtmış zabit və əsgərlərlə görüşüb söhbət etdik. Xidmət yolları ilə yaxından tanış olduq.

İlk həmsöhbətim mayor Rüstəm Bədəlov bildirdi ki, şəxsi heyət gecə-gündüz əldə silah torpaqlarımıza keşik çəkir. Döyüş hazırlığı yüksək olan əsgərlərimiz hər dəqiqə, hər an düşmən hücumunun qarşısını almağa və torpaqlarımızı erməni qəsbkarlarından azad etməyə hazırdırlar. Ön mövqedə dayanan əsgərlərimiz daim düşmən mövqelərini nəzarətdə saxlayır, müşahidələr aparırlar. Döyüş növbətçiliyinin bütün tələblərinə yüksək peşəkarlıqla əməl edilir. Ermənilər atəşkəs rejimini pozub təxribat törətmək fikrinə düşən kimi əsgərlərimiz dəqiq atəş zərbələri ilə onları susdururlar. Düşmən hər addımda hiss edir ki, onun qarşısında qüdrətli, güclü bir ordunun yüksək döyüş əzminə malik olan zabiti, əsgəri dayanıb. Məğlub olacağını bilən düşmən vahimə içərisindədir.

Mayor Rüstəm Bədəlov daha sonra söhbətinə davam edərək nümunəvi xidməti ilə şəxsi heyət arasında nüfuz qazanan baş leytenant Xəyal Qəhrəmanovun adını çəkdi. Bildirdi ki, zabit Qəhrəmanovun tabeliyində olan əsgərlər bir qayda olaraq üzərlərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlir, torpaqlarımızın keşiyində həmişə ayıq-sayıq dayanırlar. Şəxsi heyət nümunəvi döyüş növbətçiliyi aparır. Biz belə bacarıqlı və təcrübəli zabitlərlə fəxr edib öyünürük.

- Şəxsi heyətin mənəvi-psixolji hazırlığı da yüksək səviyyədədir, - deyə mayor Mahmud Kərimov söhbətimizə qoşuldu. - Zabit və əsgərlərimiz qoynunda dünyaya göz açdıqları Vətən torpaqlarına ürəkdən bağlıdırlar. Onlar hər an ərazi bütövlüyümüz uğrunda döyüşə hazırdırlar. Qardaşım Kərim Kərimov erməni işğalçılarına qarşı vuruşda şəhid olub. Döyüşdə göstərdiyi igidliyə, cəsarətə və hünərə görə Vətənin ən yüksək fəxri adına - Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Onun döyüş yolunu davam etdirdiyimə görə qürur hissi keçirirəm. Düşmənə qarşı nifrətim sonsuzdur. Nəyin bahasına olursa-olsun, torpaqlarımızı azad edəcək, şəhidlərimizin intiqamını alacağıq.

Nümunəvi xidmət edən əsgərlərdən Vasif Kərimov, Ceyhun Məmmədov və başqaları ilə də həmsöhbət oldum. Onlar bildirdilər ki, yurdumuzun keşiyində həmişə ayıq-sayıq dayanacaq, torpaqlarımızı göz bəbəyimiz kimi qoruyacaqlar.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

# "İşğalçıların qarşısı qətiyyətlə alınır"



***Hansı istiqamətə gedəcəyimizi müəyyənləşdirdikdən sonra zabitlər Eldəniz Gözəlovla və Anar Binnətovla səngərlərə yola düşdük. Yolların isə sonu görsənmirdi. Dərə-təpələri aşıb irəli getdikcə yolumuz yavaş-yavaş qısalırdı. Ərazini yaxşı tanıdığına görə zabit Anar Binnətov avtomobili çox məharətlə idarə edir, təhlükəsiz yerlərlə gedirdi.***

...Xeyli yol gəlib səngərlərə çatırıq. Əsgərlər əllərində silah mövqelərində ayıq-sayıq dayanıblar. Bütün diqqət irəli - düşmən mövqelərinə dikilib. Hər kəs öz üzərinə düşən tapşırıqları bacarıqla yerinə yetirməyə çalışır.

Bizi burada taqım komandiri Tural Məmmədov qarşıladı. Bildirdi ki, şəxsi heyət torpaqlarımızın keşiyində ayıq-sayıq dayanır. Düşmən mövqelərini daim müşahidə edirik. Erməni qəsbkarlarını bir an da olsun belə gözdən qoymuruq. Atəşkəs rejimini pozmağa cəhd edən işğalçıların qarşısı qətiyyətlə alınır. Düşmən qısa müddət ərzində dəqiq atəş zərbələri ilə susdurulur. Ermənilərin mövqelərində kiçik bir hərəkət müşahidə edən kimi barmaqlarımız silahların tətiyinə uzanır. Düşmən dəqiq atəş zərbələrimizdən qorxub geri çəkilir. Qəsbkarlar hər addımda gücümüzü, qüvvəmizi hiss edirlər. Düşmən yaxşı bilir ki, işğal etdikləri torpaqlarda onlara yer yoxdur, heç vaxt da olmayacaq. Belə ayıq-sayıqlığımızın nəticəsidir ki, son vaxtlar düşmənin təxribat cəhdləri baş tutmur. Qəsbkarlar ağır itki verib geri çəkilirlər.

Yurdumuza gecə-gündüz keşik çəkən əsgərlərlə də görüşüb söhbət etdik, onların ürək sözlərini, arzu və istəklərini dinlədik. Həmsöhbəti olduğum əsgərlərdən Elmir Rzayev, Rahil Nəsirov, Aqil Mehdixanov və başqaları Vətən torpaqlarını qətiyyətlə qoruduqlarını bildirdilər. Bu əsgərlərin üz-gözlərində cəsarət, hünər və düşmənə nifrət vardı. Onlarla söhbətdən bir daha əmin olduq ki, bu oğullar bizi həmişə uğur və qələbələri ilə sevindirəcəklər.

Torpaqlarımıza keşik çəkən bu oğullara xidmətlərində uğurlar diləyib qarşı səngərlərdəki zabit və əsgərlərin yanına getdik...

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

**Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub**

***17 avqust 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 və 82 millimetrlik minaatanlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 99 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Barekamavan, Şavarşavan, İcevan rayonunun Berkaber kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı, Fərəhli, Qızılhacılı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Tapqaraqoyunlu, Tərtər rayonunun Çiləbürt, Göyarx, Yarımca, Çaylı, Ağdam rayonunun Şıxlar, Kəngərli, Novruzlu, Yusifcanlı, Qaraqaşlı, Mərzili, Şuraabad, Sarıcalı, Cəvahirli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Aşağı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, eləcə də Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub

***18 avqust 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 millimetrlik minaatanlardan, həmçinin iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 146 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Tapqaraqoyunlu, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Göyarx, Yarımca, Çaylı, Qızıloba, Ağdam rayonunun Şıxlar, Kəngərli, Novruzlu, Yusifcanlı, Mərzili, Şuraabad, Şirvanlı, Cəvahirli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Aşağı Əbdürrəhmanlı, Aşağı Seyidəhmədli, Aşağı Veysəlli, Qorqan, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, eləcə də Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

Hərbi and

# Müqəddəs borc

## Müdafiə Nazirliyinin hərbi hissə və birləşmələrində təntənəli andiçmə mərasimi keçirilib



***Əlahiddə Ümumqoşun Orduda da iyul ayı ərzində həqiqi hərbi xidmətə çağırılmış əsgərlər hərbi andı qəbul ediblər. İlk olaraq mərasimə hərbi hissənin döyüş bayrağı gətirilib. Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib və hərbi andiçmə mərasimi açıq elan edilib.***

Hərbi andı qəbul edən əsgərlər təntənəli sürətdə vəd ediblər ki, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini qoruyacaq, bundan ötrü qanlarını və canlarını əsirgəməyəcəklər.

Əsgərlər hərbi andı qəbul etdikdən sonra Azərbaycan Respublikası Müdafiə nazirinin və Əlahiddə Ümumqoşun Ordu Komandanının təbrikləri oxunub. Yenicə and içmiş əsgərlərin nəzərinə çatdırılıb ki, əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan ordu quruculuğu siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə ordu quruculuğu sahəsində aparılan məqsədyönlü tədbirlər Muxtar Respublikada da Ali Məclisin sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə davamlı olaraq həyata keçirilir.

Təbrik oxunduqdan sonra zabitlər, əsgərlər, valideynlər və digər çıxış edənlər hərbi andı qəbul edən əsgərləri təbrik edərək onlara xidmətlərində uğurlar arzulayıblar.

Sonda mədəniyyət kollektivlərinin çıxışları və xüsusi hazırlıqlı bölmələrin öz bacarıqlarını nümayiş etdirmələri tədbiri daha da maraqlı edib.

**Nəriman NƏCƏFOV,**
**"Azərbaycan Ordusu"**

***Ulularын qəhrəmanlıq ənənələrini yaşadan Gəncə torpağında yenə də valideynlərin uzun illər arzuladığı əlamətdar və unudulmaz gündür. Respublikamızın müxtəlif bölgələrindən gəlmiş valideynlər, ictimaiyyət nümayəndələri, müharibə və əmək veteranları, gənclər "N" hərbi hissəsinə üz tutublar.***

Şərəfli döyüş yolu keçmiş hərbi hissədə gənc əsgərlərin hərbi andı qəbul etmələri üçün bütün tədbirlər həyata keçirilib. Əsgəri həyatın əsası sayılan nizam-intizam daha çox diqqəti cəlb edir. Yaradılan yüksək səviyyəli şəraitə görə hamı ölkə rəhbərliyinə, Müdafiə Nazirliyinə minnətdarlıq ifadə edir.

Mərkəzi meydanda sıralarda mətin dayanan övladlarına baxan valideynlər böyük qürur hissi keçirirlər. Onların övladlarına müqəddəs vəzifə - Vətənimizin müdafiəsi etibar olunub. Hamı hərbi qaydalara riayət edir. Polkovnik Allahverdi Hacıyev gənc əsgərlərin hərbi andı qəbul etməyə hazır olmaları barədə general-leytenant Rövşən Əkbərova raport verdikdən sonra ali rütbəli zabit gənc əsgərləri salamlayaraq onları unudulmaz gün münasibətilə təbrik etdi. Hərbi marşın sədaları altında üçrəngli bayrağımız meydana gətirilir.

Gənc əsgərlər hərbi andı qəbul etmək üçün təyin olunmuş yerə gələrək, əllərini müqəddəs bayrağımıza və döyüş silahlarına qoyaraq, Vətənə, xalqa sədaqətlə xidmət edəcəklərinə, müsəlləh əsgər olacaqlarına and içirlər.

Azərvbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun gənc əsgərlərə təbrik məktubu oxundu.

General-leytenant Rövşən Əkbərov çıxış edərək bildirdi ki, qurucusu və memarı xalqımızın ümummilli lideri Heydər Əliyev olan Silahlı Qüvvələrimiz qüdrətli inkişaf yolu keçib və regionun ən güclü ordusuna çevirilib. O, qeyd edib ki, artıq şəxsi heyət Ali Baş Komandanın əmrini yerinə yetirməyə tam hazırdır.

Böyük Vətən müharibəsi veteranları Tofiq Hüseynov və Yusif Məmmədov gənc əsgərləri təbrik edərək, onlara xidmətdə uğurlar arzuladılar. Gənc əsgər Həsən Nağıyev silahdaşları adından bildirdi ki, Vətənin etibarlı müdafiəçiləri olacaqlar.



Əsgər anaları adından çıxış edən Könül Səfərova hər kəsə xalqımızın ən böyük arzusu olan qələbə sevinci arzuladı.

Kəşfiyyat bölüyünün çıxışı mərasim iştirakçıları tərəfindən alqışlarla qarşılandı.

Mərasim Gəncə Qarnizonu Zabitlər Evinin bədii özfəaliyyət kollektivinin konsert proqramı ilə başa çatdı.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

***Həzin-həzin meh əsir... Analar həyəcanla, atalar təmkinlə, bacılar qürurla, qardaşlar həsədlə bir istəyin, bir arzunun cazibəsinə tələsir...***

***Bir qədər aralıda - hərbi hissənin sıra meydanında eyni geyimlilərin sırasında kimisə tanımaq, kimisə oxşatmaq mümkün olmasa da, analar oğlunu görmək istəyiylə bir anlığa ayaq saxlayır. Oğlunu hərbi xidmətə böyük sevgilərlə yola salan analar bura "Oğlum hərbi and içəcək!" sevinciylə gəlib...***

Bir ana gözlərini gənc əsgərlərin nizami sırasından çəkə bilmir. Hansı duyğusa bayaqdan bəri məni ona sarı çəkməkdədi. Nə soruşacağımı bilmirəm. Ürəyim öz işindədi...

Sənubər Bayramova Tovuzdan gəlib.

- Görünən dağa nə bələdçi. Burda hər şey yerli-yerindədi, - deyir ana. - Geyimlərinə baxmaq bəs eləyər ki, olan-qalan narahatlığını unudasan. Gözümüz odlar ayaqlayıb. Torpaqlarımız azad edilincəyə qədər anaların narahatlığı sovuşmayacaq. Mən öz evimdəyəm. Ev-eşiyi yadlar əlində qalanların nələr çəkdiyini uzaqdan-uzağa biz də duyuruq. Gözdən uzaq olan könüldən iraq olmur. Narahatlığımız o torpaqlarımıza görədi.



...Tədbir başlayır...

Dövlət himnimiz kəlmə-kəlmə ruhumuzu coşdurur, əlimizdən yapışıb hər birimizi xəyalən Qarabağa aparır: torpaqlarımız işğaldan azad edilib. Sönmüş ocaqlar alışır. Bugünkü meh biçimində meh əsir. Qalib əsgərlərimizin baxışları göy üzünün göylüyünə yaraşıq verən üçrəngli bayrağımızdan üzülmür...

Düşünürəm: tarixi öz qanuni axarına qaytaracaq əsgərlərin sırasında bu əsgərlər də olacaq!..

Polkovnik Qədir Nəsibov bir azdan hərbi and içəcək gənc əsgərləri də, onların valideynlərini də, tədbirdə iştirak edənləri də təbrik edərək deyir:

- İnanıram ki, hər biriniz hərbi nizamnamələrin tələblərinə əməl edəcək, komandirlərin əmr və tapşırıqlarını məsuliyyətlə yerinə yetirəcək, silahları, hərbi texnikaları həvəslə, məsuliyyətlə öyrənəcəksiniz. Silahlı Qüvvələrimizdə həyata keçirilən islahatlardan siz də xəbərdarsınız. Bu islahatlar sizə daha böyük sevinclər gətirib. Həm vətəndaş kimi, həm də çağırışçı kimi. O islahatların nə olduğunu əsgər olaraq hərbi xidmət dövründə biləcəksiniz. Əmin olacaqsınız ki, bunlar ordumuzun qüdrətinin artırılmasına yönəldilib. İstənilən vaxt Ali Baş Komandanın əmriylə torpaqlarımızı işğaldan biz azad edəcəyik. Ona görə hərb işini mükəmməl öyrənməlisiniz. İnanıram ki, öyrənəcəksiniz...

Gənc əsgərlər adından Polad Səfərov çıxış edərək bildirir ki, hərbi vəzifələrimizi tam məsuliyyəti ilə yerinə yetirəcəyik. Başlıca məqsədimiz Vətənin arzuladığı əsgər olmaqdır. Biz belə əsgər olacağıq. İndi içdiyimiz hərbi and amalımızın nədən ibarət olduğunu təsdiqləyir. Bu təntənədə iştirak edənlər əmin olsunlar ki, hərbi anda sadiq qalacağıq.

İlqar Əfəndiyev Şamaxıdan gəlib. Oğlu hərbi and içən gənc əsgərlər sırasındadır. Hər kəlməsini nəsihət bilməklə gənc əsgərlərə xitabən deyir ki, mən siz yaşda olanda Vətən kəlməsi bu qədər gözəl, bu qədər əzəmətli deyildi. Siz xoşbəxtsiniz ki, müstəqil dövlətimizin əsgəri olursunuz. Sevin Vətəni. Vətəni sevmək onun qanunlarına ciddi əməl etmək deməkdir. İndi sizin üçün ən əsas qanun hərbi nizamnamələrdir. Hərbi nizamnamələrin tələblərinə ciddi əməl edin, komandirlərin, digər zabitlərin əmrlərini, tapşırıqlarını, göstərişlərini vicdanla yerinə yetirin. Onda bizə başucalığı gətirərsiniz...

Yeganə Bağırova isə Qazax rayonundan gəlib, müəllimdir. Müəllim təmkini ilə deyir ki, digər həmyaşıdlarınız kimi siz də Vətənə Ana Vətən deyirsiniz. Ananızı sevirsiniz. Buna mən də əminəm. Ananızın da anası olan Vətəni daha böyük sevgilərlə sevin. Bayaq hərbi hissənin bayrağına hamımız kimi siz də təzim elədiniz. O bayrağı Şuşada siz dalğalandıracaqsınız. Onda biz analar sevincdən axan göz yaşlarımız içində deyəcəyik: "Südümüz halalınız olsun!"

Xalq artisti Mübariz Tağıyevin oxuduğu mahnılar tədbirin təntənəsini bir qədər də artırır.

...Gənc əsgərlərin andiçmə mərasimi təntənəli keçidlə tamamlanır. Əsgərlər o qədər qürurla, o qədər inamla, o qədər həvəslə yeriyir ki! Bir ananın sevincindən qopan kəlmələr çoxumuzu duyğulandırır: "Yerişinizə qurban olum, ay oğul!"...

Həzin-həzin meh əsir...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**



***Vətəni sevmək imandandı, - deyiblər. Müqəddəs dinimiz buyurub ki, hər kəs Vətən üçün yaşamalıdır. Bu gün biz də doğulub boya-başa çatdığımız məmləkəti yadellilərdən qoruyub saxlamaq üçün bütün səylərimizi artırmalıyıq. Ötən istirahət günü Silahlı Qüvvələrimizin birlik və birləşmələrində bir ay öncə hərbi xidmətə qədəm qoyan gənc əsgərlər Vətənimizin azadlığı və ərazi bütövlüyü uğrunda istənilən an döyüşlərə atılmağa hazır olduqlarına təntənəli surətdə and içdilər.***

İlk baxışdan üz-gözündən məğrurluq yağan elimizin igid oğulları hərbi xidmətə başladıqları qısa zaman kəsiyində gərəkli vərdişlərə lazımınca yiyələniblər. Onlar xidmətə ilk qədəmlərini qoyduqları gündən nümunəvi əsgər olacaqlarını qarşılarına məqsəd qoyublar.

Hərbi hissənin həyəti rəngbərəng bayraqlarla əhatə olunub, əsl bayram ovqatı hökm sürür. Nəzarət-buraxılış məntəqəsi qarşısında toplaşan valideynlər və qonaqlar bir azdan nəzərdə tutulmuş yerlərdə qərarlaşırlar. Mayor Hüseyn Həsənov gənc əsgərlərin hərbi andı qəbul etmək üçün düzüldükləri barədə polkovnik-leytenant Nəsirəddin İbrahimova raport verdi. Zabit şəxsi heyətlə salamlaşdı və onları əlamətdar gün münasibətilə təbrik etdi.

Sıra meydanına döyüş bayrağı gətirildi. Mərasim Dövlət himninin oxunması ilə açıq elan olunandan sonra gənc əsgərlərin andiçmə mərasimi başlandı. Sıranın önündə üzərində atıcı silahlar olan masalar düzülmüşdü. Onlar silahla "qardaş" olub Vətənə sədaqətlə xidmət edəcəklərinə təntənəli surətdə and içdilər. Gənc əsgərləri təbrik etmək üçün söz Müdafiə Nazirliyinin məsul zabiti Mənsim Hüseynova verildi. O, əlamətdar gün münasibətilə gənc əsgərləri təbrik etdi və ordu rəhbərliyinin apardığı islahatlardan söz açdı. Şəxsi heyətin məişət şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlərin həyata keçirildiyini bildirdi. Natiq sonda gənc əsgərlərə Vətən qarşısında vicdanla, şərəflə xidmət etməyi tövsiyə etdi.

Gənc əsgərlər adından söz alan Bakı Dövlət Universitetinin məzunu, əslən Füzuli rayonundan olan gənc əsgər Rəhman Bayramov xidmət dövründə hərbi bilikləri mükəmməl mənimsəyəcəklərinə söz verdi.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

***Cəbhə bölgəsindəki "N" hərbi hissəsində də təntənəli andiçmə mərasimi keçirilib. Əsgər valideynləri və ictimaiyyət nümayəndələrinin qatıldığı mərasimdə meydana Döyüş bayrağı gətirilib.***

Gənc əsgərlərin təntənəli hərbi andiçmə mərasimində ümummilli liderimiz Heydər Əliyevin və respublikamızın ərazi bütövlüyü uğrunda şəhid olan həmvətənlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi hissə komandirinin şəxsi heyətlə iş üzrə müavini mayor Namiq Cavadov əvvəlcə gənc əsgərləri və onların valideynlərini təbrik edərək, bu günün əlamətdar bir gün olduğunu tədbir iştirakçılarının diqqətinə çatdırıb.



Sonra təbrik üçün söz general-mayor Xəqani Cəbrayılova verilib. O, mərasim iştirakçılarına müraciət edərək bildirib ki, bu gün gənc əsgərlər Silahlı Qüvvələrimizin sıralarına daxil olaraq Vətənimiz Azərbaycana, xalqımıza sədaqətlə xidmət edəcəklərinə and içirlər. Hərbi and Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hər bir əsgər və zabiti üçün Vətən qarşısında dönməz sədaqətinin ifadəsi, pozulmaz qanunudur. Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycan Ordusu onun layiqli davamçısı, ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində günü-gündən daha da möhkəmlənərək yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu gün böyük iftixar hissi ilə demək olar ki, Azərbaycan Ordusu dövlət müstəqilliyimizin ən dəyərli töhfələrindən biridir.

Sonra general əsgər valideynlərini təbrik edərək hər birinə gözaydınlığı verib, övladlarını Vətənə sədaqət ruhunda tərbiyə etdiklərinə görə minnətdarlığını çatdırıb. Əminliklə bildirib ki, hər bir gənc əsgər Vətənin sədaqətli döyüşçüsü kimi formalaşacaqdır.

Gənc əsgər valideyni Vaqif Tuncay çıxış edərək vurğulayıb ki, doğma ordumuz müharibə şəraitində yaranıb, döyüşə-döyüşə formalaşıb. "Vətənimizin müstəqilliyi və müdafiəsi naminə minlərlə oğullarımız düşmənlə mübarizə apararaq qəhrəmanlıq nümunələri göstəriblər. Bu şərəfli yolda neçə-neçə Vətən övladı şəhid olub. Ümid edirəm ki, bu gün sırada məğrur dayanan gənclər nümunəvi xidmətləri ilə həm öz komandirlərinə, həm də doğmalarına başucalığı gətirəcəklər".

Beyləqan rayon Mədəniyyət və Turizm şöbəsinin hərbi hissə ilə birlikdə təşkil etdiyi maraqlı ədəbi-bədii kompozisiya da təntənəli andiçmə mərasimində rəğbətlə qarşılanıb. Oğuz elinin toy-büsatlı bayramına öz xeyir-duası ilə təşrif buyuran ulu Dədə-Qorqud obrazını yaradan sənətçi oğuz igidlərini düşməni məhv etməyə, yadelli işğalçılardan torpaqlarımızı azad edib qorumağa çağırıb. Bədii kompozisiyanın quruluşunda yer alan ananın oğlunu hərbi xidmətə yola salması və "Azərbaycan" şeirini ifa etməsi tədbir iştirakçılarında xoş anlar yaşadıb.

Sonda valideynlər hərbi hissədə yaradılan şəraitlə yaxından tanış olublar.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**



***Gənc əsgərlərin andicmə mərasimi artilleriya təyinatlı "N" hərbi hissəsində də əsgər həyatının unudulmaz səhifəsinə çevrilib. Təntənəli mərasim gənc əsgərlərin hərbi andı qəbul etməyə hazır olmaları barədə raportun qəbul edilməsi ilə başlanıb. Zabit Əbil Əmirov gənc əsgərləri salamlayıb və əlamətdar gün münasibətilə onları təbrik edib.***

Xalqımızın ümummilli lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Mərasimdə çıxış edən polkovnik-leytenant Əbil Əmirov bildirib ki, ordumuzun inkişafına ölkə rəhbərliyi tərəfindən böyük diqqət və qayğı göstərilir. Bunun nəticəsidir ki, Silahlı Qüvvlərimizin döyüş qabiliyyəti daha da təkmilləşdirilir, ordumuz müasir silah, texnika və başqa avadanlıqlarla təmin olunur. Şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün məqsədyönlü tədbirlər həyata keçirilir. Müasir tələblərə cavab verən əsgər yataqxanaları, camaşırxanalar, yeməkxanalar, təlim mərkəzləri istifadəyə verilir. Qətiyyətlə deyə bilərik ki, nümunəvi xidmət üçün hər cür şərait yaradılmışdır. Qarşımızda duran əsas vəzifə işğal altında olan torpaqlarımızın düşmənlərdən azad olunmasıdır. İnanırıq ki, hərbi andı qəbul edən gənc əsgərlərimiz də vətəndaşlıq borclarını şərəflə yerinə yetirəcəklər.

Polkovnik-leytenant Mansur İbadov, ehtiyatda olan mayor Ayaz Qəhrəmanov və başqaları da çıxışlarında əsgər və zabitləri Vətənimizin bu günü və gələcəyi naminə döyüşlərə hazır olmağa çağırıblar.

Kiçik çavuş Oruc Orucbəyli, Şamaxı rayonundan hərbi xidmətə çağırılmış gənc əsgər Nəsimi Valehov da göstərilən etimadı doğruldacaqlarını, Azərbaycan əsgəri adını şərəflə daşıyacaqlarını bildiriblər.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

# Milli Qəhrəmanın xatirəsi "İsgəndər qalası"nda yad edilib

***Gədəbəy rayonunda, düşmənlə təmas xəttində "İsgəndər qalası" deyilən yenilməz və möhtəşəm bir qala var. Bu qala neçə illərdir ki, düşmənə göz dağı olmaqla yanaşı, həm də igid oğullarımızın keşiyində ayıq-sayıq dayandığı quşkeçməz bir səngərdir. Bu qalanın daşına, qayasına neçə-neçə nər cüssəli Vətən oğlunun müqəddəs qanı çilənib. Bu qalanın müdafiəsi uğrunda neçə-neçə igidimiz şəhidlik zirvəsinə ucalıb. Onlardan biri də adı bu qalada əbədiləşən Azərbaycanın Milli Qəhrəmanı İsgəndər Söhrab oğlu Aznaurovdur.***

Həlak olduğu vaxtdan 22 il keçsə də, ahıska türkü İ.Aznaurovu nə gədəbəylilər, nə də hərbi qulluqçularımız heç vaxt unutmurlar. Avqustun 16-da ad günündə yenə də igid topçunun xatirəsi hörmət və ehtiramla yad edildi.

Əvvəlcə anım mərasimində iştirak etmək üçün bölgəyə gələn Müdafiə Nazirliyinin rəsmiləri, veteran döyüşçülər hərbi hissənin qərargahı qarşısında ucaldılmış qəhrəmanın büstü önünə qırmızı qərənfillər düzərək xatirəsini yad etdilər. Sonra maşın karvanı "İsgəndər qalası"na doğru istiqamət götürdü.



"İsgəndər qalası"nda xatirə lövhəsi önündə keçirilən anım mərasimində polkovnik Abdulla Qurbani çıxış edərək bildirdi ki, Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şəhid olan Vətən oğullarının xatirəsi dövlətimiz və xalqımız tərəfindən həmişə əziz tutulur, onların adları əbədiləşdirilir, həyat və döyüş yolları yetişməkdə olan gənc nəsil üçün örnəkdir.

Qeyd olundu ki, İsgəndər Aznaurov Özbəkistan Respublikasının Buxara Vilayətinin Qala-Asiya kəndində anadan olub, Ukraynanın Çerkessk şəhərində hərbi xidmətini başa vurduqdan sonra Daşkənd İrriqasiya İnstitutunda təhsil alıb. Sonra bir müddət Daşkənd vilayətinin Axanqaran rayonunda çalışıb. 1990-cı ildə Özbəkistanda milli zəmində toqquşmalar baş verəndə ailəsi ilə birlikdə Azərbaycana pənah gətirib. Şəmkir rayonunun Kür qəsəbəsində məskunlaşıblar.

Erməni işğalçılarının torpaqlarımıza basqını İsgəndərin də qəlbini qəzəb və intiqam hissi ilə coşdurub və o, 1992-ci ilin baharında könüllü olaraq yeni yaranmaqda olan Azərbaycan Ordusunun sıralarına daxil olub.

İsgəndər Aznaurov peşəkar hərbçi kimi düşmənin mühüm hərbi bazalarının məhv edilməsində, düşmənə texnika və canlı qüvvə sarıdan xeyli itki verilməsində şəxsi rəşadət və şücaət nümunələri göstərib.

Polkovnik Oruc Abdullayev isə çıxışında qeyd etdi ki, İsgəndər bu zirvədən düşmən üzərinə od ələyərək bir gündə onların 4 topunu sıradan çıxarıb, onlarla erməni yaraqlısını məhv edib, düşmən mövqelərinə ciddi zərbələr vuraraq bir neçə silah-sursat anbarını dağıdıb. Döyüşçülərimiz İsgəndərin qəhrəmanlıq ənənələrini bu gün də yaşadırlar.

Baş leytenant Xələfi Mübariz Nazdıxanyal uğrunda gedən döyüşlərdə İsgəndərin göstərdiyi qəhrəmanlıqlar haqqında aşıqların dastan qoşduğunu dilə gətirdi.



"Azərbaycan Əfqanıstan Veteranları" İctimai Birliyinin sədri, Qarabağ müharibəsinin veteranı Məhəmməd Vəliyev İsgəndər Aznaurovun 1993-cü ilin 18 aprelində həlak olduğunu xatırladaraq qeyd etdi ki, qəhrəman qardaşımıza yalnız ulu öndər Heydər Əliyevin Azərbaycan hakimiyyətinə yenidən qayıdışından sonra layiq olduğu "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilib, xatirəsi əbədiləşdirilib.

"İsgəndər qalası"nın müdafiəçilərindən Rövşən İsmayılov, Səxavət Eldarov, Darvin Seyidov, Samir Abduləzimov və başqaları çıxış edərək bildirdilər ki, İsgəndər öz qanı bahasına bu qalanı qoruyub. Biz də "İsgəndər qalası"nın keşiyində ayıq-sayıq dayanmışıq. Vətən qarşısında əsgəri borcumuzu şərəf və vicdanla yerinə yetirir, Ali Baş Komandanın hər bir əmrinə hər an hazırıq. "İsgəndər qalası" düşmənə göz dağıdır. Hər gün atəşkəs rejimi bir neçə dəfə pozulsa da, biz onları vaxtında susdurur, göz açmağa qoymuruq. Xalqımız və qəhrəman İsgəndərin övladları əmin olsunlar ki, biz Milli Qəhrəmanımızın qisasını qat-qat artıqlaması ilə almışıq və igid İsgəndərin davamçıları tezliklə işğal altında olan əzəli və əbədi torpaqlarımızı azad edərək xalqımızı qələbə müjdəsi ilə sevindirəcəklər.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Unutmayaq!

*1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:*

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Qazax rayonunun Yuxarı Əskipara, Aşağı Əskipara, Sofulu, Bağanıs-Ayrım, Qızıl Hacılı, Barxudarlı və Xeyrimli kəndləri (1990-1992) - 75 kv.km.***
***Laçın (18 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# Əfqanıstan müharibəsi veteranları cəbhə bölgələrindən qayıdıblar

***Bir neçə gün əvvəl cəbhə bölgələrinə yollanmış bir qrup Əfqanıstan müharibəsi veteranı Bakıya dönüb. Bir həftə davam edən səfər çərçivəsində keçmiş beynəlmiləlçi-döyüşçülər hərbi hissələrin şəxsi heyəti, eləcə də yerli əhali ilə görüşüb, düşmənlə təmas xəttində xidməti şəraitlə tanış olub, gənc əsgərlərlə müxtəlif hərbi peşələr üzrə nümunəvi dərslər keçib və əllərinə silah alaraq Vətən müdafiəçiləri ilə birlikdə ön səngərdə gecə döyüş növbəsində durublar. Dəfələrlə Ermənistan silahlı bölmələri tərəfindən atəşkəs rejiminin pozulduğunun şahidi olan vətənpərvər oğullar düşmənin susdurulmasında da yaxından iştirak ediblər.***

Şəhidlər xiyabanını ziyarətlə başlanan cəbhə bölgələrinə səfərin iştirakçılarını Şəmkir şəhərində Əfqanıstan müharibəsinin fəal döyüşçülərindən olan Azərbaycanın Milli Qəhrəmanı general-leytenant Rövşən Əkbərov qarşılayıb. O, bu səfərin həm hərbi hissələrin şəxsi heyətinin, həm də yerli əhalinin döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının yüksəldilməsində müstəsna rol oynayacağına əminliyini bildirib.

Əsgər klubunda keçirilən ilk tədbirdə Əfqanıstan müharibəsi veteranlarının keçdiyi döyüş yolundan, xalqımızın ümummilli lideri Heydər Əliyevin xeyir-duası ilə onların cəbhəyə yola salınaraq Qarabağ uğrunda əsl fədakarlıq və qəhrəmanlıq nümunələri göstərdiklərindən, eləcə də Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin keçmiş beynəlmiləlçi-döyüşçülərə daimi diqqət və qayğı göstərməsindən bəhs edilib.

Videoçarxın nümayişi ilə Əfqanıstan müharibəsi veteranlarının böyük qüvvə olduğu, ölkənin ictimai-siyasi həyatında, Silahlı Qüvvələrin şəxsi heyətinin, xüsusilə gənclərin hərbi vətənpərvərlik tərbiyəsində, onların orduya hazırlanmasında fəal iştirak etdikləri diqqətə çatdırılıb.



Səfərin iştirakçıları Tovuz, Qazax, Gədəbəy, Ağdam, Tərtər, Goranboy bölgələrində, ön səngərlərdə olublar.

"Azərbaycan Əfqanıstan Veteranları" İctimai Birliyinin sədri, Qarabağ müharibəsinin iştirakçısı Məhəmməd Vəliyev səfər təəssüratlarını bölüşərək qeyd edib ki, bu səfər unudulmaz və yaddaqalan tarixi hadisəyə çevrilib. İlk növbədə milli ordumuzun qüdrətlənməsinin, əsgəri xidmət üçün gözəl şərait yaradılmasının, Azərbaycan əsgərinin döyüş ruhunun, vətənpərvərlik hissinin necə yüksəldiyinin şahidi olduq.

Cəbhə boyu yaşayış məntəqələrində görüşlər zamanı ordu ilə xalqın monolit birliyinə bir daha əmin olduq. Həqiqətən, xalq öz ordusuna inanır, ordu isə xalqın etimadını Vətənə sədaqətli xidməti ilə doğruldur.

Əfqanıstan müharibəsindən iki "Qırmızı Döyüş Bayrağı" ordeni ilə Vətənə qayıtmış ehtiyatda olan zabit Şakir Əhmədov, "Qırmızı Ulduz" ordenli Əbülfət Hüseynov, "İgidliyə görə" medalı ilə təltif olunmuş Məhiyyəddin Rüstəmov və başqaları yenidən cəbhə bölgələrinə qayıtmaq, işğal altındakı torpaqlarımızın azad edilməsi uğrunda son döyüşlərə atılacaq Vətən müdafiəçiləri ilə birlikdə Qarabağa zəfər yürüşündə xilaskar döyüşçü kimi iştirak etmək arzusunda olduqlarını bildiriblər.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**





# İdman

## Sərbəst güləşçilərimiz dünya çempionatında 4 qızıl və 1 bürünc medalla birinci olub



Braziliyanın Salvador şəhərində güləş üzrə gənclər arasında dünya çempionatı başa çatıb.

Baş məşqçi Əsgərxan Novruzov və məşqçi Rövşən Hacıyevin rəhbərliyi ilə sərbəst güləş yarışlarının birinci günündə yığmamızın üzvlərindən Mahir Əmiraslanov (55 kq), Teymur Məmmədov (66 kq), Nurməhəmməd Hacıyev (96 kq), Səid Həmidov (120 kq) qızıl, Arif Hüseynov (50 kq) isə bürünc medal qazanıb.

Qızıl medalların sayına görə sərbəst güləş yığmamız bütün komandaları qabaqlayaraq dünya birincisi olub və güləş tariximizdə yeni bir səhifə yazıb.

Yunan-Roma güləşçilərinin mübarizəsində Azərbaycan idmançıları 1 qızıl, 2 gümüş və 1 bürünc medalla çempionatı komanda hesabında ikinci sırada başa vurublar.

Gənc qızların yarışında isə yığmamız 2 qızıl, 2 gümüş və 1 bürünc medal qazanaraq komanda hesabında ikinci sırada qərarlaşıb.

## Azərbaycanın qızlardan ibarət güləş yığması dünya çempionatında ikinci olub




Braziliyanın Salvador şəhərində güləş üzrə gənclər arasında dünya çempionatında böyük məşqçi Yaqub Məmmədov və məşqçi Aslan Ağayevin rəhbərliyi ilə qızlardan ibarət yığmamızın üzvləri uğurla çıxış ediblər.

Türkan Nəsirova (44 kq) və Leyla Qurbanova (51 kq) qızıl, Raqnetta Qurbanzadə (63 kq), Səbirə Əliyeva (72 kq) gümüş, Elis Manolova (67 kq) isə bürünc medala sahib olub.

Ümumilikdə, 2 qızıl, 2 gümüş və 1 bürünc medal qazanan güləşçilərimiz komanda hesabında 47 xalla Yaponiyadan (66 xal) sonra ikinci sırada qərarlaşıblar. Aktivində 47 xal olan Rusiya komandası isə medalların əyarına görə üçüncü yeri tutub.

## Azərbaycan boksçusu Avropa çempionatında bürünc medal qazanıb



Bolqarıstanın Samokov şəhərində boks üzrə Avropa çempionatı keçirilib.

Yarışda 41 ölkədən 241 boksçu mübarizə aparıb. Çempionatda hər çəkidə ilk altı yeri tutan dəri əlcək ustaları oktyabrda Qətərdə keçiriləcək dünya birinciliyinə vəsiqə qazanmaq imkanı əldə ediblər.

Azərbaycanın səkkiz boksçusu birinci Avropa Oyunlarında dünya çempionatına lisenziya əldə etdiklərindən Bolqarıstanda yalnız bir idmançımız rinqə çıxıb. Məşqçilər korpusu 49 kiloqram çəki dərəcəsində yeniyetmələrin Olimpiya Oyunlarının qalibi Rüfət Hüseynovu sınamağı qərara alıb. Həmyerlimiz yarımfinalda britaniyalı Horn Harveyə məğlub olaraq bürünc medalla kifayətlənib.

## Azərbaycanlı qrossmeyster 239 şahmatçı arasında üçüncü oldu



Rumıniyada keçirilən "Arad Open 2015" beynəlxalq şahmat festivalı başa çatıb.

Festivalda Azərbaycanla yanaşı, Ukrayna, Rumıniya, Avstriya, Almaniya, Macarıstan, Hindistan, Xorvatiya, Rusiya, Serbiya, İsrail, Moldova və Slovakiyadan 239 şahmatçı iştirak edib.

Azərbaycanı bu yarışda beynəlxalq qrossmeyster Ülvi Bacarani təmsil edib. İsveçrə sistemi ilə doqquz turdan ibarət keçirilən yarışın sonuncu turunda həmyerlimiz Ukrayna təmsilçisi, turnirin lideri Zubov Aleksandrla xalları yarı bölüb. Beləliklə, Ülvi Bacarani doqquz turdan aktivinə 7,5 xal yazaraq 1-3-cü yerləri bölüşüb. Əlavə göstəricilərə görə təmsilçimiz bürünc medalın sahibi olub. Qalib adını isə ukraynalı Aleksandr Zubov qazanıb.

**AZƏRTAC-ın
materialları əsasında**



***Yay istirahətini doğulub boya-başa çatdığı Gədəbəy rayonunun Kəsəmən kəndində keçirən respublikanın Əməkdar müəllimi, Azərbaycan Dövlət Tibb Universitetinin dosenti, professor Rəşid Mahmudovu bu günlər tez-tez doğma diyarın keşiyini çəkən Vətən oğullarının arasında görmək olar.***

# Professor Rəşid Mahmudov cəbhə bölgəsində

Bir neçə gün öncə Əfqanıstan müharibəsi veteranlarının və ictimaiyyət nümayəndələrinin bölgəyə gəldiyini eşidən professor da onlara qoşularaq dəniz səviyyəsindən üç min metr hündürlükdəki zirvələrə qalxmış, bir ziyalı kimi əsgərlərin xidmət şəraiti ilə tanış olmuş, onların qayğı və problemləri ilə maraqlanmışdır.

Ön səngərdəki əsgərlərin məğrurluğundan, onların döyüş tapşırıqlarını layiqincə yerinə yetirdiklərindən fərəhlənən görkəmli pedaqoq qolundan saatını açaraq, bir gün öncə düşməni cavab atəşi ilə susdurmuş gənc zabit Anar Xalverdiyevin qoluna bağlamış və ona daha böyük uğurlar qazanmağı arzulamışdır.

Əsgərlərlə bir yerdə nahar edən professor Rəşid Mahmudov zirvədən enərkən demişdir: "Doğrusu, başımız şou proqramlara o qədər qarışıb ki, çoxlarımızın ölkənin ordu quruculuğundakı nailiyyətlərindən, Vətən torpaqlarının etibarlı müdafiəsindən, Azərbaycan əsgərinin güc və qüdrətindən, şücaət və rəşadətindən xəbəri yoxdur.

Bunu gərək öz gözlərinlə görəsən ki, qiymətləndirə də biləsən. İndi qalxdığımız zirvəni vaxtilə at belində aşaraq qədim Göyçənin Cil, Babacan kəndlərinə getmişdim. At cığırından başqa bir gediş yolu yox idi. Ancaq indi əsgərlərimiz o yerlərə elə strateji əhəmiyyətli yollar çəkib, sərhəddə elə möhtəşəm istehkamlar qurub, qayaları çaparaq elə səngərlər qazıblar ki, yatsaydım da, yuxuma girməzdi. Əsgərlər də, maşallah, halaypozan, topdağıtmaz igidlərdir. Qan-qan deyirlər. Görkəmləri şux, gözləri tox, silah-sursatları bol, döyüş texnikaları saz, xidmət şəraitləri də əladan əla. Bircə o qalır ki, Ali Baş Komandanın hücum əmri ilə döyüşlərə atılsınlar. Şəxsən mən belə bir ordu ilə, bu cür igid əsgərlərlə fəxr edirəm!"



**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

Kapitan Quliyev Elvin Yavər oğluna 2006-cı ildə AAHM tərəfindən verilmiş diplom itdiyi üçün etibarsız sayılır.

---

Kapitan Quliyev Nurlan Yavər oğluna 2007-ci ildə AAHM tərəfindən verilmiş diplom itdiyi üçün etibarsız sayılır.

---

Gizir Kübərov Kamil Mirzə oğluna 2002-ci ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor müavini**
polkovnik-leytenant
Arif PƏNAHOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 606
Nüsxə 4700